doi.org/10.61764/lasr.2.2024.20-30

**UOT 136.33**

**İlham Soltanov**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, elmi işçi*
*soltanovilham72@gmail.com*
http://orcid.orq/ 0009-0001-9480-2412

# QAFQAZDA MODERNLƏŞMƏYƏ ƏSASLANAN İDARƏETMƏ MODELİ

***Xülasə***

*Cəmiyyətin inkişafı və modernləşməsi üçün yeniliklərin tətbiqi, müasir texnologiyalardan istifadə edilməsinə böyük ehtiyac vardır. Bu məqalədə Qafqaz ölkələrində cəmiyyətin modernləşməsi və demokrtik idarəetmə məsələləri ətraflı təhlil edilir, cərəyan edən məsələlərə münasibət bildirilir. Cəmiyyətin düzgün idarə olunması və yeni idarəetmə texnologiyalarından istifadə modernləşməni dərinləşdirir, inkişaf vektorunu müəyyən edir. Müasir dövrümüzdə dövlətlərin idarəetmə sistemində də təzahür edən modernləşmə yeni idarəetmə modellərinin, müasir, vətəndaşa yönümlü, onu məmnun edən idarəetmənin qurulmasının zəruriliyini üzə çıxarmışdır. Modernləşmə modellərinin məqsədi təkcə siyasi və iqtisadi problemləri həll etmək deyil, həm də innovativ dəyişikliklərin zəruriliyini təklif etmək, cəmiyyətin daha keyfiyyətli yeni sosial, mənəvi, mədəni dəyişikliklərə keçidinin mümkün variantlarını və vektorlarını müəyyən etməkdir.*

***Açar sözlər:*** *Qafqaz, sosial-siyasi hadisələr, cəmiyyət, dəyərlər, modenləşmə, idarəetmə, demokratiya, inkişaf*

## Giriş

Modernləşmə ideyasının meydana gəldiyi 50 ildən artıq bir dövr ərzində dünyanın sosio-mədəni siması tanınmaz dərəcədə dəyişmişdir. Dəyişikliklər prosesi təhlükəli konfliktlər yaratsa da, zamanın tələblərinə cavab vermiş, tərəqqinin mühüm istiqamətlərini müəyyənləşdirmişlər. Qafqaz ölkələrində də müxtəlif ölçüdə sosial-siyasi hadisələr baş verməkdədir.

Modernləşmə fəlsəfi ədəyyatda bəzən inkişafın sinonimi kimi təsnif edilir. Təbii ki, burada söhbət təkmilləşməkdən, pozitiv keyfiyyət dəyişikliklərinin toplanması prosesindən gedir. İqtisadi, sosial-demoqrafik, mədəni dəyişikliklər, ümumiyyətlə, cəmiyyətdə pozitiv transformasiya prosesləri özlərində potensial qüvvə və enerji daşıyırlar.

Dünyanın bugünkü mənzərəsini yaratmış sosio-mədəni hadisələrin gedişi və mahiyyəti göstərir ki, inkişafla modernləşmə arasında elə bir ciddi fərq yoxdur, lakin belə fərqin nəzərə alınması da vacibdir. Məsələn, müqavilələrin bağlanması müasirliyin (modernliyin) nümunəsi, etalonu kimi başa düşülür. İkinci bir tərəfdən, mədəni inkişafın qeyri-bərabər keçməsi, qabaqcıl inkişaf etmiş və geri qalmış dövlətlərin, az inkişaf etmiş ölkələrin yanaşı yaşaması faktı istər-istəməz kimisə, nəyisə ötüb keçmək, yaxud ona çatmaq inkişafı deyilən fenomeni normal və daimi tarixi prosesə çevirmişdir.

İqtisadiyyat, siyasət və idarəetmə qərarlarının qəbulu sahəsində cəmiyyətin modernləşdirilməsinin konseptual modellərinin qurulmasında rasional və eyni zamanda humanist strategiyalardan istifadə zərurətinə diqqət yetirərək müasir dünya düzəninin spesifik xüsusiyyətləri nəzərdən keçirilməlidir. Müasir dünyanın dinamikasının və problemlərinin, qloballaşma proseslərinin dərk edilməsi, mədəniyyətlərarası ünsiyyətin ideoloji əsaslarının, qlobal iqtisadi böhrandan çıxış mexanizmlərinin və cəmiyyətin demokratik inkişaf yollarının

əsaslandırılmasının axtarışı yeni dünya düzəninin formalaşdırılması zərurətini müəyyən edir. Məsələ burasındadır ki, meqa, makro və mikro risk səviyyələrində qlobal maliyyə-iqtisadi böhran daha çox mənəvi dəyərlər sisteminin böhranı, onların maddi dəyərlərin və firavanlıq modelinin xeyrinə diqqətdən kənarda qalmasıdır.

Müasir qlobal transformasiyalar dövründə dövlət müstəqilliyimizin daha da gücləndirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması və qorunması, siyasi sahədə demokratiya institutlarının daha da inkişaf etdirilməsi, dövlətin funksiyalarının yerinə yetirilməsinin və vətəndaş cəmiyyəti təsisatlarının rolunun gücləndirilməsi, qanunun aliliyini tam təmin edən mexanizmlərin təkmilləşdirilməsi, qanunların beynəlxalq standartlara uyğun gəlməsi, ictimai həyatın bütün sahələrində yeniliklərin tətbiqi əsas məsələlərdən hesab olunur.

Qafqazda müstəqilliyini yeni əldə etmiş dövlətlər üçün də müasirləşmə siyasi, sosial-mədəni, iqtisadi, hərbi və idarəetmə sferalarının hər birində köklü dəyişikliklərin edilməsini nəzərdə tutur. Bu yeniliklər dövlətin idarə edilməsində demokratik prinsiplərin bərqərar olmasını, insan haqlarına tam əməl edilməsini, cəmiyyətin şəffaflığına nail olunmasını, hüququn aliliyinin təmin edilməsini, bazar iqtisadiyyatı sisteminin formalaşmasını, mənəvi-əxlaqi davranışlarında milli ilə beynəlmiləlin sintezini daşıyan insan tipinin yetişdirilməsini əhatə edir.

**Azərbaycanda dəyərlərə əsaslanan demoktarik idarəetmə modeli**

Sosial strukturların mürəkkəbləşməsi, vətəndaş cəmiyyətinin təşəkkülü dövlət idarəetmə orqanları ilə vətəndaşlar arasındakı münasibətlərin mütərəqqi inkişafı, dövlət orqanlarının fəaliyyətində səmərənin artırılması üçün yeni mexanizmləri müəyyənləşdirmək zərurətini də üzə çıxardı. Vətəndaş məmnunluğunun təmini, hüquq, azadlıq və qanuni maraqların müdafiəsi, korrupsiyaya qarşı mübarizə, ictimai etimadın formalaşdırılması dövrün zərurətinə çevrildi. Bunun üçün ardıcıl islahatlara başlandı. Ölkə Prezidentinin siyasi iradəsilə "vətəndaşa, insan faktoruna yönümlü" müasir idarəetmə modelinin formalaşdırılması, korrupsiyanın aradan qaldırılması üçün kompleks tədbirlər həyata keçirildi.

Politoloq N.Hüseynova yazır ki, Prezident İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti ölkəmizin yeni inkişaf mərhələsinə keçməsi, Qafqazda yeni demokratik mexanizmlərin yaradılması və xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelinin, vətəndaş - dövlət qulluqçusu münasibətlərində yeni düşüncə tərzinin, kadr potensialının formalaşdırılması, korrupsiya yarada bilən səbəbləri aradan qaldırmaq üçün zəmin olmuşdur. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi üçün "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmiş, Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın, yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit olunmuşdur. Dövlət qulluğuna şəffaf seçim və irəliləyiş qaydası fəaliyyət göstərir, ehtiyat kadrların formalaşdırılmasında, əlavə peşə təhsilinin təşkilində və ümumilikdə dövlət orqanlarının fəaliyyətində, xidmətlərin təqdim olunmasında açıqlığın təmin olunması zəruri əhəmiyyət kəsb edir [1].

Postindustrial dövrü uzun illər boyu ideologiya adlandırdığımız kateqoriyanın anlaşılmasına öz düzəlişlərini etmişdir. Sovet totalitarizmi illərini həyatının son günlərinə qədər dövlətin və insanların bütün fəaliyyətini tənzimləyən ideologiyasız təsəvvür etmək mümkün deyildir. “Qorbaçov islahatları” dövründə ideologiya şahidi olduğumuz bütün mənfi halların rəmzinə çevrilməyə, kommunizmi nə isə xalqa zidd, antidemokratik, sağlam insan düşüncəsinə kökündən zidd bir anlayış kimi təcəssüm etdirməyə başladı. Sonradan “demokratların” və populistlərin “kəraməti ilə” “ideologiya” sözü tezliklə dəbdən düşdü və artıq bu sözün işlədilməsi kimin nəyə üstünlük verməsindən asılı olaraq arxaizm və ya tarixilik kimi qəbul

doi.org/10.61764/lasr.2.2024.20-30

edilirdi. İdeologiya keçmişi, heç kəsin bir daha qayıtmaq istəmədiyi keçmişi xatırlatmağa başladı. Adamların çoxu fikirləşmirdi ki, bu və ya digər ideologiya özlüyündə çox nadir hallarda bütöv bir dövlətin dağılmasına, yaxud xalqların dilənçi vəziyyətinə salınmasına yönəlmiş ideya və ya baxışları təcəssüm etdirir. Onu da yada salmırdılar ki, mahiyyət etibarilə həqiqi kommunist ideologiyası yalnız ümumi həmrəyliyi və imkanların bərabər bölüşdürülməsini təbliğ edirdi. Lakin Sovet İttifaqında müəyyən obyektiv və subyektiv amillər üzündən kommunizm ölkənin tənəzzülünün, dağılmasının, mənasız geosiyasi rəqabətin, bir-birini məhv edən etnik-milli münaqişələrin təcəssümünə çevrilmişdi. Beləliklə, "ideologiya" termini keçmiş sovet vətəndaşının nəzərində dövlətin səmərəli inkişafının antitezasına çevrilmişdir [2].

Qafqazda dəyərlərə əsaslanan idarəetmə modeli müasir iqtisadiyyata bir növ çağırışdır, insan kapitalının idarə edilməsi sisteminin şirkətin kadrlarının simasında subyekt-subyekt münasibətlərinə yönləndirməsini, idarəetmənin təşkilati inkişafını və dəyişikliyə əsaslanan şirkət mədəniyyətində, nəzarət mədəniyyətində və inkişaf mədəniyyətində qərarların qəbulunu tələb edir.

Dəyərlərə əsaslanan idarəetmə modelinin dinamikasında mənəvi dönüşlər, kadrların idarə edilməsində liderin rolunun vurğulanması ilə idarəetmə strukturunda fərdiləşmə, liderin şəxsi inkişafı, əməkdaşlığı inkişaf etdirən, sosial kapitalı formalaşdıran keyfiyyətlər, onun emosional təsiri vacibdir. Bu gün möhkəm insan kapitalına sahib olmaq, təcrübəli və savadlı işçilər əldə etmək istəyi rəqabətli bazar yaradır və kadrların və korporativ mədəniyyətin təsirinə məhəl qoymayan menecerlər tələbatsız qalma riski ilə üzləşirlər. Dəyərlərə əsaslanan innovativ idarəetmə modeli, biznes modeli, şübhəsiz ki, bütövlükdə müəssisənin mədəniyyətinin yenidən təşkilini, bütün səviyyələrdə kadrlar arasında yeni inancların və prioritetlərin tətbiqini və inkişaf etdirilməsini, sistemli keyfiyyətin idarə edilməsini və effektiv planlaşdırmanı tələb edir. Mürəkkəb məsələlərin həllinə yaradıcı yanaşma, qeyri-müəyyənlik şəraitində çevik həll yolu tapmaq bacarığı, müstəqillik və məsuliyyət, özünə nəzarət, şirkətə sədaqət, qarşılıqlı etimad kimi işçilərin fəaliyyətində prioritet korporativ dəyərlər təşkilatın səmərəli işləməyini onun böyüməsi, rəqabət qabiliyyətini, işçilərin şəxsi inkişafı, onların uğura motivasiyası, yüksəlişi və rifahınıtəmin edir, çünki uğurun əsasını işçilər təşkil edir [3, s.89].

İdarəetmə fəlsəfəsi özünü idarə etmənin təşviqinə, çətin məsələlərin kreativ həllinə, müstəqilliyə və məsuliyyətə yüksək ehtiyaca, yaradıcı iştiraka,qarşılıqlı inama dayanaraq, dəyərlərə və insan potensialının inkişafına əsaslanan idarəetmə deməkdir. Beləliklə, müasir cəmiyyətin, siyasətin, iqtisadiyyatın, modernləşdirilməsi prosesində idarəetmə qərarlarının qəbulu mədəniyyətində kommunikativ rasionallıq və bir çox sinergetik amillərin mövcudluğu kontekstində, hadisələr haqqında dəyişən məlumatları nəzərə almaq, qərarların müxtəlif variantlarının həyata keçirilməsi ehtimalını müəyyən etmək, əxlaqi tənzimləyicilərə və dəyərlərə diqqət yetirmək, etimad, əməkdaşlıq və məsuliyyət idealları lazımdır.

Demokratik kommunikativ rasionallıq onun iştirakçılarına hətta uğur zəmanətinin olmaması halında belə, konsensusa nail olmaq naminə məqsədyönlü ünsiyyət saxlamağa imkan verir ki, bu da belə ünsiyyəti potensial və ya faktiki repressivlikdən məhrum edir.

**İdarəetmədə vətəndaş amili**

Son 10 ildə Azərbaycanda həyata keçirilən islahatların insan və vətəndaş amilinin yüksəlişinə xidmət etdiyini xüsusi vurğulamağa ehtiyac yoxdur. Respublikanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətə çevrilməsi məqsədinin özü də, ilk növbədə ölkə vətəndaşlarının sosial rifah səviyyəsinin yüksəldilməsi məqsədinə hesablanmışdır. Üstəlik, sosialyönümlülük respublıkanın milli-iqtisadi inkişaf modelinin əsas xüsusiyyətlərindən biridir. Bu baxımdan, Azərbaycanın inkişaf modeli digər Qafqaz ölkələrinə nəzərən İsveç modelinə daha yaxındır. İsveç modelində sosial siyasət vacib yer tutur və işçi qüvvəsinin (əsasən yüksək ixtisaslı) təkrar istehsalı üçün qismən normal şəraitin yaradılmasını təmin etməklə, sosial gərginliyin

doi.org/10.61764/lasr.2.2024.20-30

azaldılmasında, sinfi antoqonizm və münaqişələrin neytrallaşdırılmasında mühüm rol oynayır.

Professor İ.Məmmədzadənin fikrincə, hazırda dövlətin və cəmiyyətin möhkəmlənməsi və modernləşməsi prosesində bir sıra məsələlər xüsusilə nəzərə alınmalıdır: "Dövlət müstəqilliyimizin daha da gücləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması və qorunması; siyasi sahədə demokratiya institutlarının daha da inkişaf etdirilməsi, dövlətin funksiyalarının yerinə yetirilməsinin və vətəndaş cəmiyyəti təsisatlarının rolunun gücləndirilməsi, qanunun aliliyini tam təmin edən mexanizmlərin təkmilləşdirilməsi; iqtisadi sahədə ilk növbədə qeyri-neft sektorunun genişləndirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olunması, iqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndirilməsinin genişlənməsi, ölkəmizin ümum daxili məhsulunun tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi; iqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi; mövcud resurslardan və coğrafi mövqedən istifadə olunmaqla Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi inkişafının müasir tələblər səviyyəsində təmin edilməsi [4].

Müasir dövrümüzdə dövlətlərin idarəetmə sistemində də təzahür edən modernləşmə yeni idarəetmə modellərinin, müasir, vətəndaşa yönümlü, onu məmnun edən idarəetmənin qurulmasının zəruriliyini üzə çıxarmışdır. Subyektivliyin aradan qaldırılması üçün sərt reqlamentlərə əsaslanan ənənəvi modellərdən fərqli olaraq yeni idarəetmə modelləri bunun üçün şəffaflığın artırılmasını ön plana çəkir. Sərt qaydaların deyil, optimal menecment metodlarının tətbiqi, insan kapitalı, ictimai rəy, asan və səmərəli xidmətlə vətəndaş məmnunluğu arasındakı zəruri əlaqə müasir islahatların əsas qayəsi kimi çıxış edir. Müvafiq olaraq respublikamızda aparılan ardıcıl islahatlar da idarəetmənin təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, dövlət qulluğunun xalqa qulluq mənasını ifadə etməsinə, məsuliyyətli, kreativ, dövlətinə və xalqına sadiq kadr potensialının formalaşdırılmasına xidmət edir.

Müasir cəmiyyətin modernləşməsi prosesində qlobal və milli münasibətlər, milli prioritetlərin qorunub saxlanması problemi daim özünü göstərir. Bəzi tədqiqatçılar müasir dövrdə yerli etnikliyin (millətçilik) milli dövlətlərin formalaşmasına və inkişafına töhfə verdiyi kimi, vətəndaşların identikləşdirilməsinin də milli şüur və millətə mədəni mənsubiyyət vasitəsilə həyata keçirildiyini, müasir qloballaşmanın milliyyətçiliyi birləşdirdiyini və milliyyətçiliyin formalaşmasına "siyasi bütövün postmilli özünü dərk"ə, "postmilli cəmiyyət" gətirib çıxaracağını iddia edirlər (Y.Habermas).

Ulrix Bek də özünün "kosmopolit dövlət" konsepsiyasında, vahid Avropanın millətlərüstü strukturlarının formalaşmasında, millinin aradan qaldırılmasında, milli hökumətlərin məhdudlaşdırılmasında, transmilli strukturların və məkanların yaradılmasında, vahid suverenlik nöqteyi-nəzəri qoruyur.

"Avropanın izahının" alternativ modelləri həm milləti, həm də milli dövləti əsas istinad nöqtəsi hesab edir, lakin qlobal mədəniyyətin öncəgörmələrinə gəlincə, onlar, zaman və məkanda mədəniyyətlərin köklülüyünü və yaddaşa identik olaraq asılılığı nəzərə almaq iqtidarında deyillər [4].

Qloballaşmanın aşkar iqtisadi, siyasi və sosial-mədəni üstünlükləri inkişaf etmiş ölkələrlə müqayisədə bir çox digər ölkələrdə onlar əhəmiyyətli itkilərə və məyusluqlara çevrilir. Dünya sosialist sisteminin süqutundan sonra birqütblü dünya çərçivəsində bütöv, vahid, münaqişəsiz bəşəriyyətin qurulmasına olan ümidlər açıq-aşkar şişirdilmiş illüziyalara çevrildi. Aydın olur ki, milli dövlətlərin qarşılıqlı fəaliyyəti şəraitində qlobal birliyin institusional təşkilinin ənənəvi formaları da eyni dərəcədə aktualdır.

Qlobal böhran şəraitində, şübhəsiz ki, cəmiyyətin modernləşdirilməsi prosesində həm ümumavropa, həm də dünya demokratiyasının bərqərar olması üçün mexanizmlərin

axtarılması vacibdir ki, bu da təkcə milli demokratiyaların simvolu kimi deyil, həm də dünya demokratiyasının təzahürü kimi çıxış edəcəkdir. Lakin vətəndaşların özlərinin iradəsinin təzahürü, müxtəlif maraqların, şəxsiyyətlərin, qlobal məsuliyyətin, hamı üçün ədalət ideallarının və öz etnik qrupu üçün yaxşılığı təmin etmək istəyinin real dialoqu nəzərə alınmalıdır.

Həyat reallıqları milli icmalarda yaranan münaqişələrin "burada və indi" həlli problemini aktuallaşdırır - böhran şəraitində iş yerlərini necə saxlamaq, ən həssas sosial təbəqələrin maraqlarını qorumaq, cəmiyyətin sabitliyini necə təmin etmək və s.

**Müasir cəmiyyətin modernləşməsi geosiyasi oriyentirlərin dəyişməsi prosesində**

Müasir dövrün təcrübəsi göstərir ki, «Qlobal demokratiya» mümkün olmadı. Yəni Qərb demokratiyasının yerdə qalan dünyanın demokratikləşməsi hesabına saxlanması xülyaya çevrildi. Zaman göstərdi ki, gerçəklik neoliberalların təkmillərindən daha mürəkkəbdir. Modernləşmə, eləcə də sivilizasiya prosesi bir çox cəhətdən, bəzi parametrlərə görə qeyri-bərabər şəkildə cərəyan edir.

Müxtəlif şəraitlərdən, böhranlardan plüralizmin və tolerantlığın çatışmazlığından, siyasi oyunlardan asılı olaraq modernləşmə, sivilizasiyanı ləngidə bilər, yaxud da dayandırıla bilər. Belə halda, cəmiyyətin tarixi mənlik şüurunun böhranı baş verə bilər [3, s.112].

Müasir Qafqaz cəmiyyətin modernləşməsi prosesində bu gün də postsosialist ölkələrinin dövlət, hüquqi, siyasi və mənəvi sistemlərinin demokratikləşməsi istiqamətində köklü dönüş baş verir. Modernləşmə modellərinin məqsədi təkcə siyasi və iqtisadi problemləri həll etmək deyil, həm də innovativ dəyişikliklərin zəruriliyini təklif etmək, cəmiyyətin daha keyfiyyətli yeni sosial, mənəvi, mədəni dəyişikliklərə keçidinin mümkün variantlarını və vektorlarını müəyyən etməkdir.

Modernləşmə prosesinin məzmun-mahyyətinin dərki haqqında Azərbaycan tədqiqatçısı V.Ömərov yazır:"Biz müasirləşmə prosesini nəzərdə tuturuq. Öncə, "müasirləşmə" anlayışının dəqiq fəlsəfi dərki olmalıdır. Yəni aydınlaşmalıdır ki, fəlsəfi səviyyədə konkret cəmiyyət üçün müasirlik nə deməkdir. Hesab edirik ki, bunun üzərində Azərbaycan filosoflarının düşünməsinin faydası vardır. Burada bəzi məqamlar üzərində dayanmaq istərdik. Müstəqilliyini yeni əldə etmiş dövlətlər üçün müasirləşmə siyasi, sosial-mədəni, iqtisadi, hərbi və idarəetmə sferalarının hər birində köklü dəyişikliklərin edilməsini nəzərdə tutur. Bu yeniliklər dövlətin idarə edilməsində demokratik prinsiplərin bərqərar olmasını, insan haqlarına tam əməl edilməsini, cəmiyyətin şəffaflığına nail olunmasını, hüququn aliliyinin təmin edilməsini, bazar iqtisadiyyatı sisteminin formalaşmasını, mənəvi-əxlaqi davranışlarında milli ilə beynəlmiləlin sintezini daşıyan insan tipinin yetişdirilməsini əhatə edir. Özlüyündə bu proses mürəkkəbdir və uzun zaman ola bilər. Onun reallaşdırılması hakimiyyətlə cəmiyyətin qarşılıqlı əməkdaşlığını tələb edir. Müasirləşmə ənənədən imtina deyil. Əslində məsələni bu cür qoymaq cəmiyyəti müasirləşmədən məhrum etməkdir. Çünki yeniləşmə özlüyündə keçilmiş yolu da nəzərdə tutur. Yəni yeniləşmə həmişə nələrəsə görə müasirləşmədir. Ona görə də ənənənin müasirləşmədə yeri şübhə doğurmamalıdır. Ancaq o başqa məsələdir ki, konkret cəmiyyətdə yeni sosial-mədəni, iqtisadi, mənəvi-əxlaqi meyarlarla ənənəvi meyarların nisbəti necə olmalıdır. Problemin bu tərəfi kreativ xarakter daşıyır - hər bir konkret hal üçün ayrıca araşdırılmalı və uyğun nəticələr çıxarılmalıdır" [6]. Qərbdə formalaşmış dəyərlər sisteminə maddi nemətlərə münasibət, təbiətə, insana, cəmiyyətə dərin münasibət, onların postsənaye informasiya cəmiyyətinin tələb və istəklərinə adaptasiyasının vacibliyi dinlənilmədi və həyata keçirilmədi. Üstəlik, bu dünyanın və ayrı-ayrı dövlətlərin "nüfuz sahiblərinin" media vasitəsilə mənəvi, şəxsi zənginləşməsi üzərində materialın gücü kütləvi cəmiyyət üçün uyğun bir çağırış bələdçisi oldu.

Geosiyasi oriyentirlərin dəyişməsi nəticəsində transformasiya cəmiyyətlərində kommunizmin ideoloji baxışlarını inkişaf etmiş cəmiyyətlərin Qərbdə işlənib hazırlanmış və sürətlə tətbiq edilən ideoloji konsepsiyaları – konservatizm, liberalizm, sosial-demokratiya, onların ən

doi.org/10.61764/lasr.2.2024.20-30

yeni variantları və birləşmələri əvəzləməyə başladı [7, s.217]. Bəzi cəmiyyətlərdə həmin konsepsiyalar asanlıqla mənimsənilir, digərlərində isə ictimai, siyasi və iqtisadi zəmin tapmayaraq, bu və ya digər sosiumun ənənəvi qaydalarına müvafiq olaraq əriyib itirdi. Hətta belə fikirlər də yaranmağa başlamışdı ki, Qərbin ideoloji konseptləri ənənəvi cəmiyyətlərə yabançıdır və bu cəmiyyətlər yalnız özlərinin xüsusi, ənənəvi inkişaf yolları əsasında tərəqqi edəcəkdir.

Professor İlham Məmmədzadə qeyd edir ki, ölkənin inkişafının hazırkı mərhələsində əsas hədəf çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Şübhə etmədən demək olar ki, ölkə başçısının məntiqli siyasəti Azərbaycanın inkişaf etmiş ölkələr sırasına yüksəlməsində mühüm rol oynayacaqdır. Keyfiyyətcə yeni mərhələdə, eyni zamanda, Azərbaycanın modernləşməsi mərhələsi uğurla başa çatdırılmalıdır. Şübhəsiz, modernləşmə dedikdə, kosmetik deyil, keyfiyyətcə təkmilləşdirməni, iqtisadiyyatın xarakterinin mahiyyətcə dəyişdirilməsini başa düşmək lazımdır. Bu, ilk növbədə, iqtisadiyyatı bazar prinsiplərinə keçirməkdən, sərt bürokratik nəzarətdən xilas etməkdən, sərmayə mühitini yaxşılaşdırmaqdan, büdcə siyasətini sağlamlaşdırmaqdan ibarətdir. Eyni zamanda, cəmiyyətin varlı və yoxsul təbəqələri arasında aralıq mövqe tutan orta sinfin yaradılması üçün dövlətin məqsədyönlü səyləri olmadan modernləşmə mümkün deyildir [8, s.127].

Müasir sosial-mədəni şəraitdə cəmiyyətin qlobal modernləşməsinin zəruriliyi araşdırılmalıdır. Bu, Qərbin yüksək inkişaf etmiş ölkələrinə də aiddir, çünki texnokratik cəmiyyət iqtisadi artıma və hərbi gücə can atmaqla istehsal və istehlak, zənginlik və yoxsulluq, real həyatın maddi və mənəvi tərəfləri arasında davamlı ziddiyyətlərlə üzləşmişdir [9, s.201].

Bəzi Qərb analitiklərinin diqqət yetirdiyi müasir sivilizasiyanın ən ciddi problemlərindən biri də budur ki, bu gün "Şərq Qərbi dəyişib" (Vinfrid Bettçer), Qərb bürokratik quruluşla, inadkar şəkildə artıq öz tarixi üstünlüklərini nümayiş etdirmək gücündə deyil, Qərbin Şərqlə səmimi dialoqu lazımdır çünki bir regionun çətinlikləri digəri üçün çox təhlükəlidir, həm Qərbin, həm də Şərqin səhvlərindən qaçmağa imkan verəcək yollar və yanaşmalar tapmaq lazımdır.

Tədqiqatçılar müasir postmodernləşməyə qədər bir neçə modernləşmənin olduğunu bildirirlər: postmodernləşmədən əvvəl kooperasiyaya və manufakturada əmək prosesində funksiyaların bölgüsünə keçidlə bağlı sənayedən əvvəlki modernləşmə; sənətkarlıqdan fabrik istehsalına texnoloji keçidlə müəyyən edilən erkən sənaye modernləşdirilməsi; fabrikdən axın-konveyer istehsalına keçidlə bağlı sonrakı sənaye modernləşmə.

Siyasi modernləşmə cəmiyyətin sistemli modernləşməsinin zəruri tərkib hissəsi kimi dünya düzəninin müasir modelini kökündən dəyişdirir, siyasi sistemin tədricən dəyişməsinə, əhalinin müxtəlif qruplarının siyasətdə iştirakının artırılmasına, yeni dövlətlərin formalaşmasına siyasi institutlar, ən əsası isə siyasi sabitliyi qorumaqla cəmiyyətin siyasi sisteminin və siyasi şüurun demokratikləşməsinə əsaslanır. Burada siyasi və intellektual elitanın rolu, onun məqsədyönlü fəaliyyəti, hakimiyyətlə vətəndaş cəmiyyəti arasında dialoqu vacibdir. Əhalinin diqqətini hakimiyyətə yönəldən liberal ssenariyə uyğun olaraq, siyasi modernləşmənin aşağıdakı variantları mümkündür: cəmiyyətin demokratikləşməsi; elit rəqabətin artması, lakin əhalinin aşağı fəallığı ilə avtoritar rejimlərin qurulması və modernləşmənin qarşısının alınması; elitaların rəqabəti üzərində siyasi iştirakın hökmranlığı altında modernləşmənin ləngiməsi; elitalar arasında rəqabəti və siyasi iştirak səviyyəsini minimuma endirməklə yanaşı diktaturaya təhrik etmək [3, s.204].

Sosio-mədəni modernləşməyə də diqqət yetirmək məqsədə müvafiqdir. Sosio-mədəni modernləşmədən bəhs edərkən, ilk növbədə, dövlət tərəfindən həyata keçirilən kursa, inkişaf

strategiyasına toxunmaq lazımdır. Dövlət müəyyən inkişaf strategiyası hazırlayır və mərhələli surətdə onu həyata keçirərək modernləşmənin təmin olunmasına nail olmağa çalışır. Burada əsas məqam mexanizm və vasitələrin düzgün seçilməsidir. Digər tərəfdən, ictimai-siyasi institutlar da sosio-mədəni modernləşmə kursunun həyata keçirilməsində mühüm rol oynayırlar.

Ölkəmizdə milli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini təşkil edən modernləşmə kursu mərhələli surətdə davam etdirilməlidir. Dünya praktikasında mərhələli surətdə reallaşdırılan modernləşmə kursuna nümunə modernləşmə strategiyasının fonunda konservativ xəttə də istinad edilir. Ona görə də, biz daha diqqətli olmalı, rasional düşünməli və strateji cəhətdən ən əhəmiyyətli kursu seçməliyik [4].

Bizdə konservativ xətt həmişə üstünlük təşkil edib. Amma mövcud konservatizmin fonunda liberal dəyərlər də təşəkkül tapmalıdır. Bu gün ölkəmizdə həyata keçirilən modernləşmə kursunun fonunda konservatizmlə liberalizmin çulğalaşması müşahidə olunur. Bu isə olduqca təqdirəlayiqdir.

Mühafizəkar istiqamətin nümayəndələri demokratik transformasiyaları və dəyərləri inkar etmədən müasirləşməyə əsas diqqəti siyasi sabitliyə, siyasi institutların gücünə və təşkilatlanmasına, onların siyasi nizamının mərkəzləşdirilmiş hakimiyyətin köməyi ilə təmin olunmasına yönəldirlər. S.Hantinqtonun fikrincə, əgər avtoritar rejim nizam-intizamı, iqtisadi yüksəlişi, sosial problemlərin həllini, milli birliyi, bazar münasibətlərinə keçidi təmin edirsə, kifayət qədər uyğundur. Avtoritar hakimiyyətin rəhbərliyi altında, islahatlar prosesində keyfiyyətcə müxtəlif uzun mərhələlərin və konkret prioritetlərin əsaslandırılması, onların tətbiqinin dəqiq vaxtının müəyyən edilməsinə əsaslanan siyasi liderlərin səriştəsinə kimi şərait yaradılır. Hantinqton hesab edir ki, birinci, siyasi sabitliyi gücləndirmək lazımdır, çünki sənaye sıçrayışının demokratik ənənələrlə üst-üstə düşmədiyi ölkələrdə siyasi hakimiyyət sistemində islahat cəhdləri mənfi nəticələrə səbəb olacaqdır. İqtisadi və sosial münasibətlərin islahatı sahəsində nailiyyətlər demokratiyaya keçidi təmin edəcək.

Siyasi modernləşmə mexanizmlərini bütün alternativlərlə yaxud siyasi sistemin ardıcıl liberallaşdırılmasını vurğulamaqla, ya da başa düşməkdə, kəskin "şok" liberallaşmasına diqqət yetirməklə, nəyin bahasına olursa olsun ("köhnə siyasi sistemin dağılması və yeni demokratik sistemin tətbiqi- konkret model"), aydın olur ki, modernləşmənin mühüm vəzifəsi cəmiyyətin dəstəyinə əsaslanan, islahatları əsaslandırmağa və həyata keçirməyə, instrumental strategiyalar qurmağa, sosial müdafiəni təmin etməyə qadir olan siyasi və diplomatik elitanın formalaşdırılmasıdır. İqtisadi artım və demokratik islahatlar, həm beynəlxalq, həm də yerli səviyyədə yaranan sosial gərginlik və münaqişələrin vaxtında həllini tələb edir. Cəmiyyətin modernləşdirilməsi və innovativ inkişafı imkanlarının müasir dəyər-normativ modeli institusional oxa (mədəniyyət - hüquq - dövlət) və ya dəyər oxuna (yenilik - ədalət - azadlıq) meyillənib. Bu bir tərəfdən mütərəqqilik, yaradıcılıq, digər tərəfdən isə ənənəvilik, mədəni özünəməxsusluq və inkişaf meylinin bir-birini tamamlamasında ifadə olunur [10,s.82]. Aydın olur ki, cəmiyyətin modernləşməsi üçün modellər qurarkən biz baş verənləri rasional dərk etməkdən, ağıla, bəşər tarixinin mənasına, insan azadlığına inamdan, şəxsi və ictimai şüurun ağlabatan əsaslarla dəyişdirilməsi imkanlarından əl çəkməməliyik. Şəxsi və ictimai mövqeyimizi və davranışımızı müəyyən edən ağıldır və buna görə də əxlaq, vicdan, ədalət bizim üçün əhəmiyyətlidir, çünki ağılın yaratdığından o zaman adekvat istifadə edilə bilər ki, onun istifadəsində də ağıl iştirak edir.

Rasional yanaşma, elmi rasionallıq, elmin idealları və normalarına bu gün intizamlı biliyinin formalaşması və inkişafının klassik dövrü və XX əsrin 60-cı illərinin bizə daha yaxın olan dövrlərilə müqayisədə tamamilə fərqli prizmadan baxılır. Belə ki, o zaman elmi rasionallığa, “liriklərin” və “fiziklər”in dialoquna xüsusi maraq var idi. Müasir fəlsəfi- metodoloji və ictimai-siyasi tədqiqatlarda rasionallığa fəlsəfi və ideoloji bir quruluş kimi xüsusi diqqət yetirilir ki, ona görə ağıl prinsipləri insanların varlığının, idrakının və davranışının

həqiqi əsaslarını təşkil edir. “Qlobal böhran” və “qlobal depressiya” şəraitində cari hadisələrin rasional dərkinə müraciət, əldə edilmiş biliklərin sintezi zərurəti, sosial-fəlsəfi, dəyər-antropoloji, elmi-tədqiqat və s. koqnitiv, siyasi-hüquqi və iqtisadi diskurslar şəklində rasionallığın fundamental mövzusunu aktuallaşdırır. Rasionallıq fenomeninə müraciət etmək, kommunikativ rasionallığın xüsusiyyətlərinin aydınlaşdırılması, rasional və əxlaqi yönümlü qərarların qəbulu bugünkü riskli cəmiyyətdə xüsusilə zəruridir. Avropa ənənəsində rasionalizm həyat qabiliyyətli və tam başqa düşüncə tərzi kimi hər birinə ayrı-ayrılıqda deyil, mahiyyətlərinin fərqliliyinə baxmayaraq istisnasız olaraq sosial, iqtisadi,siyasi sahələrə xarakterik rəng verirdi. Mövcud iş adamlarının və siyasətçilərin, demək olar ki, hamısı rasionalist və ya ona yaxın mövqe tutmuşlar. Onlar bu düşüncə tərzinə özləri, inamları  yaxud rasionalizmin qaçılmaz olduğuna əminlikləri, ya da heç bir əsaslandırma olmadan qəbul edərək gəlmişlər. Eyni zamanda, rasionalistin ümumi xarakteri və münasibəti ondan ibarətdir ki, o, hər bir mümkün şəraitdə ağılın müstəqilliyini və zərurətini həmişə təsdiq edir, fikir azadlığını təsdiq edir, yalnız ağılın avtoriteti istisna olmaqla hakimiyyət qarşısında baş əyməkdən imtina edir [9, s.6].

Rasionalist öz düşüncə tərzinə görə həm skeptik, həm də optimisdir: skeptikdir  – çünki bütün müxtəlif fikirlərdə, adət-ənənələrdə, inanclarda onun tənqidindən, ağıl məhkəməsindən qaça biləcək heç bir şey yoxdur; nikbindir, ona görə ki, o, öz ağlının əşyaların həqiqi dəyərini müəyyən etmək qabiliyyətinə, fikirlərin ədalətliliyinə və ya hərəkətlərin aşağılığına heç vaxt şübhə etmir Müasir demokratik cəmiyyətdə ünsiyyətin kommunikativ rasionallıq yaxud ünsiyyətin rasionallığı kompromis, konsensus, rasional diskurs dəyərlərinin üstünlüklərinə yönəldilməsi və bununla da sosial ədalət prinsipinin həyata keçirilməsinə səbəb olan sosial subyektlərin fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsinə, ən mütərəqqi yerli kommunikasiya təcrübələrinin inkişafı və sosial inkişafa inteqrasiyasına töhfə verməsi vacibdir [C.Rouls].

Beləliklə, maraqların uzlaşdırılması yolunda münaqişələrin rasionallaşdırılması, siyasi və iqtisadi qərarların qəbulunun rasionallaşdırılması, münaqişə tərəfləri üçün məqbul olan konsensus variantlarını tənzimləmək üçün xüsusi institutların və texnologiyaların işlənib hazırlanması imkanı. Eyni zamanda, siyasi və iqtisadi diskurs elm dilinin rasional standartlarından istifadə edir və eyni zamanda müəyyən sosial reallıqlara və sosial məqsədlərə - siyasi səmərəlilik, iqtisadi səmərə və s. cavab verir. İqtisadiyyatda rasionallıq təsərrüfat subyektinin (istehlakçının, istehsalçının, hökumətin və s.) iqtisadi səmərə, mənfəət və s. kimi dəyər yönümlərinin üstünlükləri (imtiyazları) ilə bağlı qaydalar toplusuna uyğun gələn davranışı deməkdir.

Eyni zamanda, müasir sosial qarşılıqlı əlaqə iqtisadiyyatı altruizm, ədalət hissi və s. formalaşması üçün təbii mexanizmləri ortaya qoyan antropoloji dönüşü "yaşayır". Neyroiqtisadçılar eksperimental olaraq sübut etdilər ki, insanlar həqiqətən də ən azı bir qədər fədakardırlar və ədalətsizliyi və bərabərsizliyi aradan qaldırmaq üçün öz pullarını ödəməyə hazırdırlar [9, s.11]. Avropa və Amerikanın ədalət anlayışında sosial-mədəni kontekst müasir iqtisadçılara Avropa və Amerika arasındakı makroiqtisadi fərqləri izah etməyə imkan verir. Kasıbların tənbəl deyil, şəraitin və ədalətsizliyin qurbanı olduğuna inanan avropalılar yüksək sosial müavinətləri və müvafiq olaraq yüksək vergiləri dəstəkləyir, amerikalılar isə aşağı səviyyəli yenidən bölüşdürmə və aşağı vergilərə səs verirlər. Belə çıxır ki, insan varlığının həyatdan məmnunluq və ya xoşbəxtlik kimi antropoloji və şəxsi-subyektiv hadisələri də iqtisadi ölçüyə məruz qala bilər. Ekonometrik metodlar, subyektivliyə, dəyişkənliyə və xoşbəxtlik göstəricilərinin gözləntilərinin dəyişməsindən asılılığına baxmayaraq, hələ də müəyyən etməyə imkan verir ki, faydalılıq funksiyasının və ya iqtisadi agentlərin hədəf funksiyasının ən yaxın analoqu olan həyatdan və ya xoşbəxtlikdən özünü dərk edən məmnunluqdur. “Xoşbəxtlik iqtisadiyyatı” gəlirin artması ilə tam xoşbəxtlik hissi, inflyasiyanın aşağı düşməsi və işsizliyin artması nəticəsində bədbəxtlik və s. arasında əlaqə qurur.

Sinergetik qnoseologiya 21-ci əsrdə sosial və humanitar elmlərin və insan davranışının

doi.org/10.61764/lasr.2.2024.20-30

inkişafında yeni prinsiplər müəyyən edir, çünki başa düşmək vacibdir ki, “xətti olmayan mürəkkəb reallıqda xətti düşüncə təhlükəli ola bilər... Yadda saxlamalıyıq ki, siyasətdə və tarixdə monokausallıq dogmatizmə, dözümsüzlüyə və fanatizmə gətirib çıxara bilər... Mürəkkəb sistemlərin öyrənilməsinə yanaşma qnoseologiya və etikada yeni nəticələr yaradır. Mürəkkəb qeyri-xətti dünyada xaosun qarşısını almağa və sinergetik effektlərin yaradıcı imkanlarından istifadə etməyə imkan verir” [7,s.306].

Köklü şəkildə dəyişən bazar, iş dünyasının artan mürəkkəbliyi, açıqlığı, qeyri-müəyyənliyi və sürətli dəyişkənliyi şəraitində onun qlobal texnoloji dəyişiklikləri, iyerarxik idarəetmə ilə inert, birölçülü-xətti idarəetmə modelləri müasir şirkətlərin sistemi ilə ziddiyyət təşkil edir. Əmr-nəzarət praktikası, sərt iyerarxiya və göstərişlərə ehtiyatsız əməl etmək ruhunda idarəetmə qərarlarının qəbul edilməsi innovativ və yaradıcı yanaşma, çevik mobillik, korporativ mədəniyyətə və müştəri maraqlarına diqqət tələb edən müasir biznesin məntiqinə uyğun gəlmir. Davranışın üstünlük təşkil etdiyi prinsiplərə, təşkilat həyatının tələblərinə və əxlaqi qaydalara dair sabit inanclar sistemi kimi dəyərlərə əsaslanan idarəetmə modeli mürəkkəb məsələləri səmərəli, yaradıcı və məsuliyyətli şəkildə həll etməyə, qeyri-müəyyənliyə uyğunlaşmağı, qarşılıqlı inam və şirkətə sadiqliklə işləməyi bacarmağa imkan verir.

Sual “liberalizmin dominant ideologiyasının əxlaqı əsaslı şəkildə inkar etdiyi bir şəraitdə insan simasını necə qoruyub saxlamaq olar... və həyat şəraitinin kəskin pisləşməsi “ətalətlə” qalan əxlaq normalarından xilas olmaq üçün güclü şirnikdirmə yaradır.

Müasir cəmiyyətin rasionallığı şəxsi və ümumi maraqları əlaqələndirmək bacarığında, müxtəlif siyasi, iqtisadi və mənəvi seçimləri ifrata və qarşıdurmalara çatdırmamaq, onların yarana biləcək toqquşmalarını neytrallaşdırmaq istəyində özünü göstərir.

**Nəticə**

Cəmiyyətin modernləşməsi mürəkkəb bir proses olmaqla, həm də zəruriliyi ilə fərqlənir. Belə ki, qlobal transformasiyalar şəraitində cəmiyyətdə müxtəlif hadisə və proseslər baş verir ki, onların düzgün istiqamətə yönəldilməsi vacib məsələdir. Cəmiyyətin inkişafı və modern-ləşməsi üçün yeniliklərin tətbiqi, müasir texnologiyalardan istifadə edilməsinə böyük ehtiyac vardır. Modernləşmə təhsilin, səhiyyənin, humanitar sahələrin inkişafına xüsusi diqqətin ayrıl-masını, insan amilinin yüksək inkişaf səviyyəsinə çatdırılmasına nail olunmasını, multikultural və tolerant dəyərlərə əməl olunmasını, xalqın bilik və bacarıqlarının səmərəli tətbiqi mexa-nizmlərinin qurulmasını, bəşəri dəyərlərə söykənməklə milli-mənəvi dəyərlərin qorunub saxlanmasını, qloballaşmanın üstünlüklərindən yararlanan önləyici inkişaf modelinə keçidin təmin olunmasını, aztəminatlı ailələrin etibarlı sosial müdafiəsinin təmin olunmasını, əhalinin orta təbəqəsi dairəsinin genişləndirilməsini və onun cəmiyyətin həyatında rolunun və əhəmiyyətinin artırılmasına nail olunmasını, idarəetmənin təkmilləşdirilməsini, səmərəli və peşəkar dövlət qulluğunun olmasını, mütəmadi olaraq yeni inkişaf mərhələsinə keçməni, yeni demokratik mexanizmlərin yaradılmasını və xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelinin, vətəndaş - dövlət münasibətlərində yeni düşüncə tərzinin, kadr potensialının formalaşdırılmasını tələb edir. Cəmiyyətin düzgün idarə olunması və yeni idarə-etmə texnologiyalarından istifadə modernləşməni dərinləşdirir, inkişaf vektorunu müəyyən edir.

Modernləşmə cəmiyyətdəki ictmai həyatın bütün sahələrində olmalıdır. Modernləşmə idarə olunun prosesdir. Neoliberal nəzəriyyə bu prosesi universal hesab edir. Qeyd edək ki, BMT-nin yaradılması onun bəyannamələrinin və sənədlərinin başlıca mənası məhz həmin dünyanın universal idarəetmə prinsipini həyata keçirməkdir. Təbii ki, bu prosesdə arxaik ideologiya yalnız ətalət yarada bilər.

Modernləşmə yarımçıq qaldıqda, yaxud dayandırıldıqda mədəniyyətin geriləməsinə, avtoritarizmin kök salmasına, şovinizmə, dini fanatizmə gətirib çıxarır. Belə olduqda siyasi

avantürizmin yaranması hər cür tərəqqiyə ölümcül zərbə deməkdir. Bununla belə, dialektik proses olan moderinləşdirmə özündə yeni pozitiv ideyaların həyata keçirilməsi imkanlarını daşıyır. Buna görə də son nəticədə modernləşmə və sivilizasiya prosesləri qarşısı alınmaz fenomenlərdir.

Modernləşmə modellərinin məqsədi təkcə siyasi və iqtisadi problemləri həll etmək deyil, həm də innovativ dəyişikliklərin zəruriliyini təklif etmək, cəmiyyətin daha keyfiyyətli yeni sosial, mənəvi, mədəni dəyişikliklərə keçidinin mümkün variantlarını və vektorlarını müəyyən etməkdir. İdarəetmə prosesi zamanı modenləşmənin nəticələri nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Hüseynova N. İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu.https://asan.gov.az/media/news/idareetmede-mueasir-islahatlarin-esas-istiqametleri-seffafliq-asan-xidmet-vetendas-memnunlugu(12.05.2023)
2. Modernləşmə xətti yenə də gündəlikdədir. Son söz əvəzi: ideologiya, yoxsa ideya? https://azertag.az/xeber/modernlasma_xatti_yena_da_gundalikdadir_5-7593 (15.05.2023)
3. Яскевич Я.С. Политический риск и психология власти. – Минск: Право и экономика, 2011, – 298 с.
4. Prezident İlham Əliyev Azərbaycanın bundan 40-50 il sonrakı vəziyyətini düşünür.https://yeniazerbaycan.com/Musahibe_e9243_az.html (17.05.2023)
5. Долан С. Управление на основе ценностей. Корпоративное руководство по выживанию, успешной жизнедеятельности и умению зарабатывать деньги в XXI веке. / С. Долан, С.Гарсия. – М.: Претекст, 2008, – 313 с.
6. Ömərov V. Ulu Öndər Heydər Əliyevin modernləşmə siyasətinin dövlətçiliyimizin inkişafına təsiri.https://sesqazeti.az/news/mia/412777.html (28.05.2023)
7. Майнцер К. Размышления о Сложности. Сложная динамика материи, разума и человечества / К. Майнцер. – М.: «Наука», 1994, – 342 с.
8. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında / İ.Məmmədzadə. Bakı, «Təknur», -2020, 225 s.
9. Делягин М. В жерновах глобальной депрессии/М.В.Делягин.- М.: – «Свободная мысль», 2013, № 1 (1637). с.5-17.
10. Тульчинский Г.Л. Доверие и гражданская идентичность как факторы консолидации российского общества //-М.: «Философские науки», -2012, № 11, - с.76-88.


**Ильхам Солтанов**

## МОДЕЛЬ УПРАВЛЕНИЯ НА ОСНОВЕ МОДЕРНИЗАЦИИ НА КАВКАЗЕ


***Резюме***

Для развития и модернизации общества существует большая необходимость применения инноваций и использования современных технологий. В данной статье подробно анализируются вопросы модернизации общества и демократического управления в странах Кавказа. Правильное управление обществом и использование новых технологий управления углубляют модернизацию и определяют вектор развития. Модернизация, проявившаяся в системе управления государствами в нашу современную эпоху, выявила необходимость создания новых моделей управления, современного, ориентированного на граждан и удовлетворяющего управление. Целью моделей модернизации является не только решение политических и экономических проблем, но и обоснование необходимости инновационных изменений, определение возможных вариантов и векторов перехода общества к новым, более качественным социальным, моральным и культурным изменениям.


***Ключевые слова:*** Кавказ, общественно-политические события, общество, ценности, модернизация, управление, демократия, развитие

doi.org/10.61764/lasr.2.2024.20-30

**Ilham Soltanov**

## MANAGEMENT MODEL BASED ON MODERNIZATION IN THE CAUCASUS

***Summary***

For the development and modernization of society, there is a great need to apply innovations and use modern technologies. In this article are analyzed in detail the issues of modernization of society and democratic governance in the Caucasus countries. Proper management of society and use of new management technologies deepens modernization and determines the vector of development. Modernization, manifested in the management system of states in our modern era, has revealed the necessity of establishing new management models, modern, citizen-oriented, and satisfying management. The purpose of modernization models is not only to solve political and economic problems, but also to suggest the need for innovative changes, to identify possible options and vectors for the transition of society to new social, moral, and cultural changes of better quality.

***Keywords:*** Caucasus, socio-political events, society, values, modernization, management, democracy, development